**AZƏRBAYCAN RESPUBLİKASI  TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**«BEYNƏLXALQ MÜNASİBƏTLƏR»**

**5901.01- İxtisas**

# P r o q r a m ı

(fəlsəfə doktoru proqramı üzrə təhsilin doktorantura pilləsi üçün)

**BAKI  2020**

Təhsilin doktorantura pilləsi üçün nəzərdə tutulmuş 5901.01- beynəlxalq münasibətlər ixtisası üzrə fənn proqramı aşağıdakı hissələrdən ibarətdir:

I.Beynəlxalq münasibətlər tarixi
II.Beynəlxalq münasibətlər nəzəriyyəsi
III.Konfliktologiya
IV.Dünya siyasəti
V. Geosiyasət
VI.Beynəlxalq təhlükəsizlik problemləri
VII.Müasir inteqrasiya prosesləri və beynəlxalq təşkilatlar
VIII. Azərbaycanın xarici siyasəti

Tərtibçilər:
Siyasi elmlяr doktoru,  professor H.K.Hüseynova
Tarix elmlər doktoru, professor A.N.Abbasbəyli
Tarix elmlər doktoru, professor İ.M.Musa
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent K.C.Məmmədov

Redaktoru:
S.e.f-d. dos.əv.Q.H.Məmmədov

**Proqram Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin 22 may 2020-ci il tarixində keçirilmiş Elmi Şurada təsdiq edilmişdir, pr. №4**

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

*I dövr: Qədim və və orta əsrlər dövrü diplomatiyası*

## I Mövzu
## Qədim Şərq, yunan və Roma diplomatiyası

Qədim Şərq ölkələri arasında dövlətlərarası münasibətlər. Tel-Amaran yazışmaları (e.ə. XVI-XV əsrlər). Qədim Misir fironu II Ramzesin Xett çarı III Xattuşil müqaviləsi (e.ə.1278). Assuriya dövlətinin beynəlxalq siyasəti (e.ə.VIII-VII əsrlər). Manu diplomatiyası (e.ə. I minillik).

Qədim Elladanın beynəlxalq əlaqələri. Panellin sülh konqressinin çağırılması. Perikl layihəsi (e.ə.448-ci il). Peloponnes müharibəsi dövründə diplomatik mübarizə (e.ə.431-404-cü illər). Makedoniyalı İsgəndərin xarici siyasəti və diplomatiyası. Makedon-ellinizm dövründə yunan diplomatiyası.

Respublika dövründə Roma diplomatiyası. Roma imperiyasında beynəlxalq əlaqələrin formaları. Roma imperiyasında diplomatik apparat. Barbarlarla müttəfiqlik müqavilələri.

## II Mövzu
## Orta əsrlərdə beynəlxalq münasibətlər

Bizans imperiyası Yustinian hakimiyyəti illərində (527-556-ci illər). Bizansda səfir işi (VI-X əsrlər). Bizans-Sasanı münasibətlıri.

Böyük Karl imperiyası. Böyük Karl diplomatiyası.

XII-XV srl rd Fransa diplomatiyası. Milli dövl tl rin meydana g lm si. XII-XV srl rd İtaliya diplomatiyası. Venesiyada s firlik işi.

Osmanlı imperiyasının dünya siyasəti meydanına çıxması. Türk işğalları. Bizans imperiyasının süqutu. Böyük Süleymanın hakimiyyəti illərində Türkiyənin xarici siyasəti.

## III Mövzu
## Azərbaycanın dünya siyasəti meydanına çıxması

Erkən orta əsr Azərbaycan dövlətlərinin yaranması. Sacilər və Salalilər dövlətləri. Slavyanların Azərbaycan torpaqlarına yürüşlərinə qarşı

mübarizə. Bərdə faciəsi (944-ci il). Şirvanşahlar dövlətinin xarici siyasəti.

Azərbaycanın selçuk imperiyasının tərkibinə qatılması. Atabeylər dövlətinin yaradılması. Atabeylər-Eldənizlər dövlətinin xarici siyasəti. Eldənizlər dövlətinin süqutu. Azərbaycan monqol istilaları dövründə.

Azərbaycan torpaqlarının vahid dövlətə birləşdirilməsi uğrunda mübarizə və nəticələri.

## IV Mövzu
## XV-XVIII əsrin II yarısında Azərbaycan milli diplomatiyası

Azərbaycan uğrunda rəqabət mübarizəsi. Qaraqoyunlu dövlətinin yaradılması və xarici siyasəti.

Ağqoyunlu dövlətinin Azərbaycanın birləşdirilməsi üğrunda mübarizəsi. Maxmudabad döyüşü (1469-cu il). Uzun Həsənin diplomatiyası. Sara Xatun Azərbaycanın ilk qadın diplomatıdır. Ağqoyunlu-Türkiyə münasibətləri. Uzun Həsənin antiosman liqasının yaradılması uğrunda mübarizəsi. Ağqoyunlu dövlətinin parşalanması.Azərbaycan milli diplomatiyasının xüsusiyyətləri. Diplomatik orqanlar və səfər işi.

Azərbaycan Səfəvi dövləti. Şah İsmayıl və I Təhmasibin diplomatiyası. Avropa dövlətləri ilə münasibətlər. Səfəvi-Osmanlı müharibələri və beynəlxalq nəticələri. Qəsri-Şirin sülhü (1639-cu il). Azərbaycanın Rusiya və Türkiyə arasında rəqabət meydanına cevrilməsi. I Pyotrun Cənub yürüşü. XVIII əsrin ortasında Azərbaycanın siyasi vəziyyəti.

## V Mövzu
## Son orta əsrlər və yeni dövrün əvvələrində beynəlxalq münasibətlər (XVI əsr – XVIII əsrin birinci yarısı)

XVI əsrdə Avropanın siyasi xəritəsi. “Dövləti maraq” xarici siyasətin əsas prinsipi kimi. Beynəlxalq hüququn əsaslarının meydana gəlməsi. Diplomatiyanın tipləri. XVI–XVIII əsrlərdə diplomatiya tarixinin dövrləşməsi.

Qərbi Avropa ölkələri diplomatiyası. Rus dövlətinin diplomatiyası. XVI əsr Avropada fransız hegemonluğu dövrü. IV Henrixin diplomatiyası. Rişelyenin diplomatiyası. Otuzillik müharibə və Vestfal sülhü.

İngilis burjua inqilabının diplomatiyası (1640-1660-ci illər). Kromvelin diplomatiyası. XVI-XVII əsr diplomatlarının xüsusiyyətləri.

## *II dövr: Yeni dövr diplomatiyası*

### I Mövzu
### XVIII əsrin ikinci yarısında beynəlxalq vəziyyət

Dövlətlərarası və beynəlxalq aləmdə dəyişiklər. İngiltərənin dəniz yollarında, ticarət və müstəmləkə sahəsində birincilik uğrunda mübarizəsi. Qərbi Avropada beynəlxalq qarşıdurma: ingilis-fransız və Avstriya-prus rəqabəti. Yeddiillik müharibə (1756-1763-cü illər). Rusiya imperiyasının Avropa dövlətləri sistemində rolunun artması. XVIII əsrin ikinci yarısında "Şərq məsələsi"nin mahiyyəti. Rus-türk müharibələri (1768-1774; 1787-1791-ci illər). Avropa dövlətlərinin Polşa uğrunda mübarizəsi. Polşanın bölüşdürülməsi.

ABŞ-nın təşkili. İstiqlaliyyət bəyannaməsi. T.Cefferson. İngilis-amerikan müharibəsi və Avropa dövlətlərinin mövqeyi. Böyük Briyaniya və ABŞ arasında Paris sülh müqaviləsi (03.09.1783-cü il).

### II Mövzu
### Böyük Fransa burjua inqilab illərində beynəlxalq münasibətlər

XVIII əsrin sonunda Böyük Fransa burjua inqilabının tarixi şəraiti. Müəssislər və qanunverici məclisi dövründə Avropa dövlətlərinin xarici siyasəti. Konventin xarici siyasəti. Yakobin diktaturasının inqilabı diplomatiyası və xarici siyasəti. Koalisiyalarının təşkili və Fransaya qarşı müharibənin başlanması. Fransa ilə sülh müqavilələrinin imzalanması. Generallar diplomatiyası. Napoleon Bonapartın irəli çəkilməsi. Napoleonun Fransada hərbi diktaturasının qurulması (1799-ci il). Taleyran.

Napoleon müharibələri dövründə Avropada münasibətlər (1799-1815). İngilis-fransız və fransa-rus münasibətlərinin kəskinləşməsi. Tilzit sülhü və onun mahiyyəti. Fransa-Avstriya, Fransa-Prussiya münasibətləri. Napoleon ordulalarının Rusiyaya soxulması və məğlub olması.

Leypsiq altında "Xlqlar döyüşü" (16-19.X.1813-ci il). Koalisiya iştirakçıları arasında ziddiyyatlar. Şomon traktatı (1.III.1814). Napoleon imperiyasının dağılması, onun səbəbləri. Birinci Paris sülhü və Burbonlar sulaləsinin bərpası.

Napoleon müharibələrindən sonra Avropada siyasi vəziyyət. Vyana konqresinin çağırılması və onun qərarları (siyasi, ərazi və xüsusi

qətnamələr). Napoleon Bonapartın "Yüz günü" və onun Vyana konqresi iştirakçılarına təsiri. Burbonlar sulaləsinin ikinci bərpası. "Müqəddəs İttifaqının" təşkili və Avropada irticanın güclənməsi.

## III Mövzu
## XVIII əsrin sonu – XIX əsrin ortalarında Avropa dövlətlərin arasında münasibətlərin kəskinləşməsi

Avropa dövlətlərin müstəmləkəçilik siyasəti. Britaniya, Fransa və Hollandiyanın Şərq siyasətinin fəallaşması. Ost-Hind kompaniyasının Hindistanda müstəmləkəçilik siyasətinin forma və metodları. Orta Asiyada ingilis-rus qarşıdurması. Birinci ingilis-əfqan müharibəsi (1839-1842). Qərb dövlətlərinin Cində siyasəti. Birinci tiryək müharibəsi (1838-1842). Kapitulyasiya müqavilələri. ABŞ, Rusiyanın Sakit okeanda və Cində siyasəti.

Krım müharibəsi (1853-1856) ərəfəsində beynəlxalq vəziyyət. Müharibənin səbəbləri. Rus-türk münaqişəsində İngiltərə, Fransa, Avstriya və Prussiyanın mövqeyi. Rusiyanın beynəlxalq aləmdə təcrid edilməsi. Müharibənin başa çatması və Paris sülh konqresi (25.II-30. III.1856). Sülh müqaviləsinin şərtləri.

## IV Mövzu
## Azərbaycanın bölüşdürülməsi və beynəlxalq nəticələri

Müstəqil Azərbaycan dövlətinin – xanlıqlarının yaradılması. Quba, Şəki, Qarabağ və Urmiya xanlıqlarının Azrbaycanın birləşdirilməsi uğrunda mübarizəsi. Qubalı Fətəli xanın xarici siyasəti. Rusiya ilə münasibətlər. Şimal-Şərqi Azərbaycan torpaqlarının birləşdirilməsi. Rusiya, İngiltərə, Fransa, Türkiyə və İranın Cənubi Qafqazda maraqları. Rusiyanın Qafqaz siyasətinin fəallaşması. Qazax və Şəmsəddin torpaqlarının tutulması.

Azərbaycanın parçalanması uğrunda mübarizəsinin ikinci mərhələsi. İkinci rus-İran və ikinci rus-türk müharibəsi. Rusiyanın Cənub yürüşü. Türkmənçaymüqaviləsi (1828-ci il). Edirnə sülhü (1829-cu il). Azərbaycanın istiqlaliyyətinin itirilməsi və beynəlxalq nəticələri.

## V Mövzu

## XIX əsrin ikinci yarısında Avropada beynəlxalq münasibətlər

Krım müharibəsindən sonra Fransa ilə Prussiya arasında münasibətlər. III Napoleon və Bismark. Bismarkın diplomatiyası. Fransa-Prussiya müharibəsi (1870-1871) və onun nəticələri. Frankfurt sülhün qərarları (10.V.1871).Almaniyanın birləşməsi və imperiyanın yaranması.

Üç imperator ittifaqı (1873-cü il). Fransa-Almaniya hərbi həyacanlarına (1875;1877) Rusiya və İngiltərənin münasibəti.

Balkanlarda Türkiyəyə qarşı üsyan və Yaxın Şərq məsələsinin kəskinləşməsi (1875-1877). Şərq böhranı. Serb-türk (1876-1877) və rus-türk müharibəsi (1877-1878). San-Stefano və Berlin konqresinin qərarları (1878-ci il). Berlin konqresində erməni məsələsi.

Bismarkın bloklaşma siyasəti. Avstriya-alman ittifaqı və onun siyasi qiyməti (7.X.1879). "Üç imperator ittifaqının" bərpası haqda 1881-ci il müqaviləsi. İtaliyanın Avstriya-alman bloku ilə yaxınlaşması. Vyanada Almaniya, Avstriya-Macarıstan və İtaliya tərəfindən Üçlər ittifaqı müqaviləsinin imzalanması (20.V.1882).

XIX əsrin sonunda müstəmləkə uğrunda mübarizənin kəskinləşməsinin səbəbləri. Fransanın Tunisi zəbt etməsi (1881). Türkiyənin parçalanması üğrunda mübarizə. Məhərrəm dekreti (1881). Orta Asiya-Əfqanıstan və Türkmənistan uğrunda rus-ingilis mübarizəsinin kəskinləşməsi. İkinci ingilis-əfqan müharibəsi (1878-1880). Qandamak müqaviləsi (26.V.1879).

ABŞ-ın xarici siyasətinin xüsusiyyətləri. Panamerikanizm. İspan-ABŞ müharibəsi (1898-ci il). "Xey doktrinası" (1899-cu il). Panama kanalı haqqında ingilis-amerika müqaviləsi (1850-ci il) və onun yeniləşməsi (5.IV.1900). "Dollar diplomatiyası" və "böyük dəyənək" siyasətinin meydana gəlməsi.

## VI Mövzu

## XIX əsrin sonu-XX əsrin əvvələrində Avropa ölkələrində dövlətlərarası ziddiyyətlər

Bolqar böhranı, Şimali və Cənubi Bolqarıstanın yenidən birləşdirilməsi (1895). Fransa-alman və rus-alman ziddiyyətlərinin kəskinləşməsi. "Üç imperator ittifaqının" iflası və "təkrar sığortaetmə"

müqaviləsi (1887). Sosberi və ingilis "təntənəli təcrid etmə" siyasəti. Almaniya xarici siyasətində "Yeni kurs".

Fransa-rus ittifaqı (1891-1893) və 1892-ci il konvensiyası. Almaniya hərbi-dəniz proqramı və XIX əsrin sonu XX əsrin əvvəlində onun gücləndirilməsi.

Uzaq Şərqdə ingilis-rus və yapon-rus rəqabəti. 1902-ci ingilis-yapon müttəfiqlik müqaviləsi. Rus-yapon müharibəsi (1904-1905). Rus-yapon müharibəsi dövründə aparıcı dövlətlərin Uzaq Şərq siyasəti. Rusiyanın müharibədə məğlub olması. Portsmut sülhü müqaviləsi (5.IX.1905).

## VII Mövzu
## Birinci dünya müharibəsi ərəfəsində dünya diplomatiyası (1908-1914)

Fransa-alman və ingilis-alman qarşıdurmasının kəskinləşməsi. İngilis-fransız danışıqları. Faşod münaqişəsinin həlli. "Ürəkdən razılıq" adlı razılaşmanın bağlanması (8.IV.1904), onun mahiyyəti və beynəlxalq əhəmiyyəti.

1905-1906-cı illərdə birinci Mərakeş böhranı və onun beynəlxalq nəticələri. Əfqanıstan, İran və Tibetə dair ingilis-rus razılaşması (31.VIII.1907). İngiltərə, Fransa və Rusiya arasında hərbi əməkdaşlığın qurulması. Antantanın yaradılması. Dünya ərazilərin bölüşdürülməsinin başa çatması. Avropanın iki bloka parçalanması və beynəlxalq nəticələri.

İki blok arasında qarşıdurmanın kəskinləşməsi. Balkan böhranı və böyük dövlətlərin mövqeyi (1908-1909). İkinci Mərakeş böhranı (Aqadir münaqişəsi, 1911-ci il) və dövlətlərin mövqeyi. İtaliya-türk müharibəsi (1911-1912). Balkan dövlətləri arasında qarşıdurma. Birinci Balkan müharibəsi (1912-1913). London müqaviləsi və onun əhəmiyyəti (30.V.1913). İkinci Balkan müharibəsi (1913). Buxarest sülh müqaviləsi (10.IX.1913). Balkan müharibələrinin beynəlxalq nəticələri.

Antanta və Üçlər İttifaqının hərbi hazırlığı və birinci müharibəsi ərəfəsində beynəlxalq vəziyyət.

## VIII Mövzu
## Birinci dünya müharibəsi dövründə diplomatik mübarizə

1914-cü ilin yayında beynəlxalq aləmdə qüvvələr nisbəti. Sarayevo hadisələri. İyul böhranı. İyul böhranı ərəfəsində dövlətlərin siyasəti. Avstriya-Macarıstan-serb münaqişəsi və Birinci dünya müharibəsinin

başlanmasında Almniysnın rolu.

Bolqarıstan və Türkiyənin müharibəyə qoşulması. Yaponiyanın Cinə "21 tələbi". Bitərəf ölkələrin müharibəyə cəlb olunması uğrunda diplomatik mübarizə. Birinci dünya müharibəsində ABŞ-ın mövqeyi.

Rusiyada burjua-demokratik inqilabın baş verməsi və Romanovlar sülaləsinin devrilməsi (fevral,1917-ci il). Müvəqqəti hökümətin təşkili və onun xarici siyasəti. 1917-ci il oktyabrın 25-də Rusiyada bolşevik çevrilişinın beynəlxalq əhəmiyyəti.

## *III dövr: Birinci dünya müharibəsinin sonundan – ikinci dünya müharibəsinin sonunadək (1918-1945) olan dövrdə beynəlxalq münasibətlər*

### I Mövzu
### Birinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlər. Versal-Vaşinqton sistemi və onun mahiyyəti

Sovet Rusiyanın Almaniya və onun müttəfiqləri ilə sülh razılaşması imzalanması. Antantanın sülh danışıqlarından imtina etməsi. Sovet dövlətinə münasibətdə müttəfiqlərin mövqeyi. Brest sülh müqaviləsinin imzalanması və şərtləri (03.III.1918).

V.Vilsonun "14 bəndi". Qərb cəbhəsində Almaniyanın hücumu və iflası. Bolqarıstan, Osmanlı Türkiyə və Avstriya-Macarıstanın təslim olması. Almaniyada inqilabın başlanması və Antantanın mövqeyi. Kompyen barışığı (11.XI.1918). Birinci dünya müharibəsinin başa çatması.

Paris sülh konfransı və onun qərarları (18.I.-28.06.1919). Millətlər Cəmiyyətinin təşkili. Versal sülh müqaviləsi, onun mahiyyəti. Sen-Jermen, Neyi, Trianon və Sevr müqavilələri.

Vaşinqton beynəlxalq konfransı və onun qərarları. Dörd, beş və doqquz dövlətinin Vaşinqton müqaviləsi. İngilis-yapon ittifaqının başa çatması. Sakit Okeanda qarşıdurmanın kəskinləşməsi. Versal-Vaşinqton sisteminin yaradılması, onun ziddiyətləri və beynəlxalq nəticələri.

### II Mövzu
### 1918-1925-ci illərdə beynəlxalq münasibətlər

Qərb dövlətləri tərəfindən Sovet Rusiyanın diplomatik cəhətdən təcrid edilməsi. Sovet Rusiyasında vətəndaş müharibəsinin başa çatması.

Polşa böyük dövlətlərin planında. 1920-ci il Polşa-sovet müharibəsi və qərb dövlətlərin mövqeyi. “Kerzon xətti”.

Yaxın və Orta Şərqdə beynəlxalq münasibətlər. Türk xalqının işqalçılara qarşı mübarizəsi və Antanta dövlətlərinin siyasəti. Sovet Rusiya və Türkiyə. Moskva və Kars müqavilələri. Lozanna konfransı. Konfransda boğazlar məsələsi. Qara dəniz boğazları rejimi haqda konvensiya. Lozanna sülh müqaviləsi.

Henuya və Haaqa konfransı dövründa beynəlxalq vəziyyətin xarakterik cəhətləri. Təzminat sistemində böhran və onun nizamlanmasında ABŞ və İngiltərənin rolu. Rurun işğalı. “Daues planı”nın hazırlanması və onun mahiyyəti.

Lokarno konfransı və onun qərarları (5-16.XI.1925).

## III Mövzu
## Dünya iqtisadi böhranı dövründə beynəlxalq münasibətlər (1929-1935)

Millətlər Cəmiyyətində tərksilah problemi. Brian-Kelloq paktı.

Dünya iqtisadi böhranının beynəlxalq münasibətlərə təsiri. Təzminat məsələsi. “Yunq planı”. Huverin moratoriumu. Lozanna iqtisadi konfransı və təzminat ödənişlərinin iflası.

Faşist İtaliyası və Vatikan. Aparıcı dövlətlərin dəniz rəqabəti. 1930-cu il London dəniz konfransı. “Pan-Avropa” planı və onun xüsusiyyətləri. Almaniyanın silahlanmada “bərabərlik” tələbi. F.D.Ruzveltin “yeni kursu”. Latın Amerikada “mehriban qonşuluq” siyasəti.

Uzaq Şərqdə aparıcı dövlətlərin qarşıdurmasının kəskinləşməsi. Yapon hökümətinin işğalçı siyasəti. Tanaki memorandumu. Cinin Şimali-şərq (Mançuriya) əyalətlərini Yaponiya tərəfindən işğal etməsi və böyük dövlətlərin mövqeyi. Yaponiya və Almaniyanın Millətlər Cəmiyyətindən çıxması. Versal-Vaşinqton sisteminin dağılması.

Almaniyada faşist rejimi qurulması. Hitlerin hakimiyyətə gəlməsi. Alman faşizminin Avropada müharibə ocağı yaratması. Tərksilaha dair Cenevrə konfransı (1931-1934-ci illər). Konfransda Almaniyanın mövqeyi. Hücüm etməmək haqqında alman-Polşa paktı. Şərq paktı imzalamaq

haqqında danışıqlar. Laval-Mussolini (Roma) razılaşması. Versal müqaviləsinin hərbi maddələrindən Almaniyanın imtina etməsi. Almaniyanın silahlanması və böyük dövlətlərin mövqeyi.

## IV Mövzu
## Faşist dövlətləri hərbi irticasının başlanması dövründə beynəlxalq vəziyyət (1935-1939)

Alman və İtaliya faşizminin müstəqil dövlətlərə münasibətdə siyasəti. İtaliya faşizminin işqalçı proqramı. İtaliyanın Efiopiyaya hücümu və işğal etməsi (07.V.1936). ABŞ-ın bitərəfliyi haqqında qanun (1935-ci il). Qara dəniz boğazları rejimi haqqında Montre konfransı (22.VI.-21.VII.1936). Boğazları rejimi haqqında saziş.

İspaniyada faşist qiyamı. İspaniyaya İtalia-alman müdaxiləsi. ABŞ-ın bitərəfliyi haqqında qanuna əlavələr (1937-ci il).

Almaniya-İtaliya razılaşmasının imzalanması və Roma-Berlin oxunun təşkili (25.X.1936). Alman-yapon Antikomintern paktı (25.XI.1936). İtaliyanın Antikomintern paktına qoşulması (6.XI.1937). Almaniyanın Avstriyanı zəbt etməsi və dövlətlərin mövqeyi (13.III.1938).

Uzaq Şərqdə hərbi təhlükəsizliyin artması. Çində yapon irticasının yeni mərhələsi.

Müharibə təhlükəsinin artması. Çexoslovakiya ilə Almaniya arasında münasibətlərin gərginləşməsi və böyük dövlətlərin mövqeyi. Dörd dövlətin Münxen sövdələşməsi (30.IX.1938).

Avropada siyasi vəziyyətin kəskinləşməsi. Faşist Almaniyasının Çexoslovakiyanı zəbt etməsi. Faşist irticasının genişlənməsi. Klaypedanın Almaniya, Albaniyanı İtaliya tərəfindən zəbt edilməsi. Alman-İtaliya hərbi ittifaqının rəsimləşdirilməsi. Sovet-alman danışıqları. Molotov-Ribbentrop paktı (23.VIII.1939).

## V Mövzu
## Avropada beynəlxalq vəziyyət. İkinci dünya müharibəsinin başlanması

Almaniyanın Polşaya hücumu və İkinci dünya müharibəsinin başlanması. Alman ordularının Danimarkaya soxulması. İngiltərədə Fransız

hökümətinin təslimçilik mövqeyi. Fransanın təslim olması. Kompyen barışığı. Vişi rejimi. Belçikanın təslim olması. U.Çerçilin hakimiyyətə gəlməsi. İtaliyanın müharibəyə qoşulması. Almaniya-İtaliya-Yaponiya Üçlər paktı (27.IX.1940).

Fransanın məğlubiyyətindən sonra İngiltərənin hərbi və beynəlxalq vəziyyəti. İtaliyanın Yunanıstana hücumu. Yaxın Şərqdə vəziyyət. ABŞ-ın siyasəti..

Uzaq Şərqdə vəziyyət. Hind-Cinə qarşı yapon irtiçası.

Almaniyanın SSRİ üzərinə hücuma hərbi və diplomatik hazırlaşması. Finlyandiya, Slovakiya, Rumıniya və Bolqarıstanın Üçlər paktına qoşulması.

Hitler Almaniyası və onun müttəfiqlərinin SSRİ-yə hücum etməsi. 1941-ci ildə sovet-alman cəbhəsində hərbi əməliyyatların gedişi.

Antihitler koalisiyasının təşkilinin başlanması. Almaniyaya qarşı müharibədə birgə haqqında SSRİ və Böyük Britaniya arasında razılaşma. İngilis-amerikan münasibətləri. Atlantik xartiyası.

## VI Mövzu

## Antihitler koalisiyasının təşkilinın başa çatması

Sakit okeanda dövlətlərarası ziddiyyətlərin gərginləşməsi. Yaponiyanın Perl-Xarbra hücumu. ABŞ, İngiltərə, Hollandiya, Çin və b. dövlətlərin Yaponiyaya ilə müharibə vəziyyəti elan etmələri. Almaniya və onun müttəfiqlərin ABŞ-a müharibə elan etməsi.

Hitlerin "ildırımsürətli" müharibə planının iflası. Alman-faşist ordularının Moskva altında darmadağın edilməsi.

Antihitler koalisiyasının mıhkəmlənməsi. 1 yanvar 1942-ci il tarixli Millətlər Cəmiyyətinin qətnaməsi. SSRİ, İngiltərə və İran arasında müttəfiqlik haqqında müqavilə.

1942-ci ildə Avropada ikinci cəbhə məsələsi. Balkanlara müdaxilə layihəsi. Şimali Afrikada hərbi əməliyyatlar. İşğal ölkələrdə azadlıq hərəkatına antihitler koalisiyası iştirakçılarının münasibəti. Moskva və Tehran konfransları və qərarları.

1944-cü ildə Avropada beynəlxalq vəziyyət. Avropada ikinci cəbhənin açılması. Dumbarton-Oks konfransı və BMT Nizamnaməsi layihəsinin hazırlanması. Faşist blokunun dağılması. Faşist koalisiyası ölkələrində milli-azadlıq hərəkatı. Sovet ordusunun Avropaya daxil olması.

SSRİ, ABŞ və İngiltərə dövlət başçılarının Yalta konfransı (4-

11.II.1945). Konfransın qərarları.

Faşist Almaniyasının darmadağın edilməsi və danışıqsız təslim olması.

**VII Mövzu**

**İkinci dünya müharibəsinin başlıca yekunları**

San-Fransisko konfransı (25.IV-25.VI.1945). BMT Nizamnaməsinin qəbulu. BMT-nin quruluşu. Təhlükəsizlik Şurasının daimi üzvləri."Veto" prinsipi.

SSRİ, ABŞ və İngiltərə hökümət başçılarının Potsdam konfransı (17.VII-02.VIII.1945). Konfransda Almaniyanın gələcəyi məsələsi və qərarları.

Əsas alman hərbi cinayətkarları üzərində məhkəmə üçün Beynəlxalq hərbi tribunal təsis edilməsi. Nürnberq prosesi.

Yaponiyanın təslim olması (02.IX.1945). Uzaq Şərq məsələsinə dair üç dövlətin Krım razılaşması.

Hitler Almaniyası və militarist Yaponiyasının təslim olunmasının beynəlxalq nəticələri. İkinci dünya müharibəsinin başa çatması.

## *IV dövr: İkinci dünya müharibəsinin sonundan müasir dövrədək*

**I Mövzu**

**İkinci dünya müharibəsindən sonra beynəlxalq aləmdə dəyişikliklər**

Siyasi, hərbi və iqtisadi nəticələr. Yalta-Potsdam sisteminin qurulması. Avropanın parçalanması və beynəlxalq nəticələri. Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinin beynəlxalq münasibətlər sistemində yeri və rolunun dəyişməsi. Şərqi Avropada siyasi dəyişikliklər. XİNŞ sessiyaların keçirilməsi. Sessiyalarda SSRİ və qərb dövlətləri arasında diplomatik mübarizə. 1947-ci il Almaniyanın müttəfiqləri ilə sülh müqavilələrinin imzalanması.

Dunay (Belqrad) beynəlxlq konfransı (30.VII-18.VIII.1948). Triest məsələsi.

Asiya və Afrikanın bir sıra ölkələrində ictimai-siyasi vəziyyətinin dəyişilməsi. Üçüncü dünya ölkələrində milli-azadlıq hərəkatının

xüsusiyyətləri. İstiqlaliyyət Bəyyannaməsi və dünya müstəmləkə sisteminin iflası (1960). Fələstin məsələsi. İsrail dövlətinin yaranması və xarici siyasəti. İlk ərəb-İsrail müharibəsi və nəticələri.

## II Mövzu
## "Soyuq müharibə" illərində dünyada vəziyyət. Dünya siyasətində iki kursun mübarizəsi

Müharibədən sonra ABŞ-ın dünya siyasətində rolunun, iqtisadi və maliyyə vəziyyəti, hərbi gücünün artması. "Çəkindirmə doktrinası". Trumen doktrinası. Çerçilin Fulton çıxışı (05.III.1946).

Müharibədən sonrakı ilk illərdə Almaniya məsələsi. Birinci "Berlin böhranı" və onun beynəlxalq nəticələri. AFR və ADR-in təşkili. Almaniyanın parşalanmasının beynəlxalq nəticələri.

Hərbi-siyasi blokların təşkili ətrafında diplomatik mübarizə. Qərb İttifaqı, NATO və Varşava paktı. İki hərbi-siyasi blokunun qarşıdurmasının güclənməsi. ANZYUS, SEATO və SENTO.

"Marşall planı", onun məqsədi, qəbul edilmə şərtləri və fəaliyyətinin nəticələri.

Yaponiya ilə dinc nizamasalma məsələsi. San-Fransisko konfransı (04-08.IX.1951) və Yaponiya ilə sülh müqaviləsinin imzalanması. SSRİ-nin mövqeyi. Yapon-amerikan "təhlükəsizlik müqaviləsi".

Atom silahının qadağan edilməsi problemi ətrafında diplomatik mübarizə. MAQATE-nin yaradılması.

## III Mövzu
## XX yüzilliyinin II yarısında Asiya, Latın Amerikası və Afrikada beynəlxalq vəziyyət

Müstəmləkə sisteminin dağılması və böyük dövlətlərin mövqeyi. 50-ci illərin ortalaında Cənub-Şərqi və Cənubi Asiyada vəziyyət. Hind-Çinə dair Cenevrə razılaşmasından sonra Cənubi Vyetnamda vəziyyət. Vyetnama ABŞ-ın təcavüzü. Vyetnam müharibəsi. Hərbi vasitələrlə Vyetnamı "sakitləşdirmək" planın iflası. Vyetnam probleminin dinc vasitələrlə nizamlanmasına dair Paris danışıqları və tərəflərin mövqeyi. R.Niksonun Quam doktrinası.

Yaxın və Orta Şərqdə milli-azadlıq hərəkatları və müstəmləkə

sisteminin dağılması. Misir hadisələrinə böyük dövlətlərin münasibəti. Q.Nasir tərəfindən Süveyş kanalının milliləşdirilməsi. "Dalles planı". "Eyzenxauer-Dalles doktrinası". Yaxın Şərqdə böyük dövlətlərin rəqabəti.

Fələstin probleminin yenidən kəskinləşməsi. Regionda hegemonluq uğrunda ABŞ və SSRİ arasında mübarizə. Ərəb-İsrail 1967 -ci il "altı günlük" müharibəsi. Fələstin ərazilərinin işğalı. BMT Təhlükəsizlik Şurasının 22 noyabr 1967-ci il 242 №-li qətnaməsi. FAT və Fələstin ərəblərinin müqavimət hərəkatının təşkilində onun rolu.

Yeni dövlətlərin beynəlxalq münasibətlərdə rolu. Bloklara qoşulmamaq hərəkatı və dünya siyasətində onun rolu.

Müharibədən sonra ABŞ-ın Latın Amerikasında mövqelərinin möhkəmlənməsi. Latın Amerikasında milli azadlıq hərəkatı. Kuba inqilabı və onun beynəlxalq vəziyyətə təsiri. Karib böhranı (1962-ci il). Böhranın nizamlanması ətrafında diplomatik mübarizə. Problemin BMT-də müzakirəsi. Karib böhranının dinc vasitələrlə nizamlanması.

Afrikada ölkələrinin dünya diplomatiyası orbitinə çıxması. BMT-nin "İstiqlaliyyət bəyannaməsi". Afrika qitəsində inteqrasiya prosesləri və ABT-nin təşkili.

## IV Mövzu
## XX əsrin 70-80-ci illərdə tərksilah və sürətlə silahlanmasının qarşısının alınması uğrunda diplomatik mübarizə

Karib böhranından sonra atom silahı sınaqlarının qadağan edilməsi ətrafında danışıqlar. Moskva müqaviləsi və beynəlxalq nəticələri (1963-cü il).

Nüvə silahının yayılmasına dair Moskva danışıqları. Moskva müqaviləsinin imzalanması və beynəlxalq nəticələri (1970-ci il). 70-ci illərin əvvələrində SSRİ-ABŞ münasibətləri. Strateji hücüm silahlarının məhdudlaşdırılmasına dair sovet-amerikan danışıqları. SSM-1 müqaviləsinin imzalanması. Müqaviləyə 1974-cü il əlavə protokolu. SSM-2 ətrafında danışıqlar. Əfqanıstan problemi və ABŞ-ın SSM-2 müqaviləsinndən imtina etməsi.

R.Reyqanın prezidentliyi dövründə sovet-ABŞ münasibətlərinin pisləşməsi. Reyqanın "ulduz müharibələri" proqramı. 80-ci illərin II yarısında beynəlxalq vəziyyət. Strateji silahların məhdudlaşdırılmasına dair danışıqların yenidən başlanması. Vaşinqton (1987) və Moskva (1988) müqavilələri. Yaxın və Orta mənzilli raketlıərin ləğv olunmasına dair SSRİ-ABŞ danışıqlarının nəticələri.

## V Mövzu
## Avropada təhlükəsizlik və əməkdaşlıq problemləri

60-ci illərin sonlarında təhlükəsizliyə dair Ümumavropa müşavirəsi ideyasının meydana gəlməsi. Finlyandiyanın təşəbbüsü öz üzərinə götürülməsi. Ümumavropa təhlükəsizliyinə dair danışıqların üç mərhələsi. Xarici işlər nazirləri və ekspertlərin görüşləri. Qarşılıqlı öhdəliklər. İnsan hüquqları problemi.

Avropa təhlükəsizlik və əməkdaşlığa dair müşavirənin çağırılması (1975-ci il). Müşavirənin gündəliyi, Yekun aktının qəbulu və əsas müddəaları. Bəyannamə prinsipləri.

XX yüzilliyin 80-ci illərinin sonlarında Avropada qlobal dəyişikliklər. Fövqəladə Paris konfransının çağırılması (1990-cı il). Paris Xartiyasının qəbulu. "Soyuq müharibənin" başa çatması. Yeni şəraitdə ümumavropa təhlükəsizliki məsələsi. ATƏM-in beynəlxalq təhlükəsizlik məsələlərində rolu və əhəmiyyətinin artması.

## VI Mövzu
## Yaxın və Orta Şərqdə beynəlxalq və dövlətlərarası münasibətlər

Yaxın Şərqdə böyük dövlətlərin maraqları və nüfuz üstünlüyü uğrunda mübarizənin yeni mərhələsi.

1960-70-ci illərdə Kipr məsələsi. Yunanıstanın "enozis" siyasəti. Türkiyənin Kiprə müdaxiləsi və ŞKTR-nın yaradılması. Kipr probleminin BMT-də müzakirəsi.

Ərəb dövlətləri arasında münasibətlər və ərəb ölkələri federasiyanın təşkili. Ərəb-İsrail münasibətlləri. 1973-cü il oktyabr müharibəsi. Müharibənin dayandırılmasına dair Təhlükəsizlik Şurasının qərarı. 1973-cü il 338 №-li qətnaməsi.

Misirin ərəb həmrəyliyindən çıxması və İsrailə separat sülhə razılıq verməsi. Kemp-Devid sazişləri və separat sülh müqaviləsinin imzalanması (1978). Amerika-İsrailin strateji alyansı.

İranda İslam inqilabı (1978-ci il). Ayatulla Xomeyni. Şaxlıq rejiminın devrilməsi. İran İslam Respublikasının yaradılması (1979-ci il). Qonşu dövlətlərlə münasibətlər. İran-İraq müharibəsi (1980-1988). Müharibənin nəticələri. İİR-na münasibətdə ABŞ və SSRİ-nin siyasəti.

Əfqanıstanda aprel çevrilişi (1978-ci il). Sovet ordusunun Əfqanıstana soxulması (1979-cu il). Cenevrə sazişləri. Sovet qoşunlarının

Əfqanıstandan çıxarılması (1989-cu il).

80-90-cı illərdə Ərəb Şərqində vəziyyət. İsrailin Livana müdaxiləsi və beynəlxalq nəticələri (1982-ci il). İraqın Kuveyti zəbt etməsi və Fars körfəzində müharibə (1991-ci il). Münaqişənin beynəlmiləlləşdirilməsi. İraqın məğlub olması. Yaxın Şərqdə Rusiyanın mövqeyinin zəifləməsi, ABŞ-ın – möhkəmlənməsi.

## VII Mövzu
## XX əsrin sonları-XXI əsrin əvvəlirində beynəlxalq vəziyyət

XX əsrin 80-ci illərinin sonlarında dünyada siyasi vəziyyət. XX yüzilliyin 80-ci illərinin sonlarında Şərqi Avropa ölkələrində ictimai-siyasi şərait və beynəlxalq vəziyyət. "Məxmər inqilabları". Şərqi Avropa ölkələrində kommunist rejimlərinin dağılması. Varşava paktının buraxılması. Almaniyanın birləşməsi. Vahid Çexoslovakiya dövlətinin parçalanması. Yuqoslaviyanın dağılması. Balkan böhranının beynəlxalq nəticələri. Avropa İttifaqı və NATO-nun Şərqə doğru genişlənməsi.

SSRİ-nin buraxılması və beynəlxalq aləmdə dəyişikliklər. Alma-Ata protokolu və bəyannaməsi. Rusiyanın beynəlxalq vəziyyəti. B.Yeltsin və V.Putinin prezidentliyi dövründə Rusiyanın xarici siyasəti. Milli münaqişə ocaqlarının yaranması. Cənubi Qafqazda vəziyyət.

Minilliklərin qovşağında beynəlxalq vəziyyət. Beynəlxalq terrorizmin güclənməsi. 2001-ci ilin sentyabr hadisələri. ABŞ-ın Əfqanıstanda antiterror kompaniyası və dünya dövlətlərinin münasibəti. ABŞ-İraq müharibəsi və beynəlxalq nəticələri (2003-cü il). İraqda S.Hüseyn rejiminin devrilməsi.

XX yüzilliyin sonlarında Fələstin problemi. Oslo danışıqları. "Yol xəritəsi". İsrail-Fələstin münasibətlərinin dinc yolla nizamlanması sahəsində irəliləyişlər. ABŞ-İran münasibətləri.

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİ

## Mövzu I
## Beynəlxalq münasibətlər nəzəriyyəsi fənninin predmeti və əhəmiyyəti

İctimai-siyasi fikir tarixində beynəlxalq münasibətlərə dair fikirlər. Klassik (Fukidid, Nikolo Makiavelli, Tomas Hobs, Emeri de Vattel, general Karl fon Klausevits), liberal-demokratik (Fransisko de Vittorio, Huqo Qrosiy, İmmanuel Kant) və marksist ənənə. BMN fənninin meydana gəlməsi və inkişafı.

BMN fənninin predmeti və obyekti. Kursun məqsəd və vəzifələri. "Beynəlxalq münasibətlər" məzmunun "dünya siyasəti" və "beynəlxalq siyasət" məzmunları ilə münasibəti. Kennet Tompson beynəlxalq siyasət fənninin öyrənilməsinin mərhələləri haqqında. BMN-nin əsas inkişaf mərhələləri. BMN-nin başqa ictimai elmlərin münasibəti.

## Mövzu II
## Beynəlxalq münasibətlərin araşdırılması metodları

BMN-nin metodları haqqında ümumi məlumat. Ümumi metodlar: sosioloji, kulturoloji, normativ, funksional, bixeviorist, struktur-funksional, sistem, institusional, antropoloji, psixoloji, fəaliyyət, tənqidi-psixoloji, tənqidi-dialektik, müqayisəli, tarixi metodlar.

Tətbiqi metodlar: situasiyanın təhlili metodları, eksplikativ metodlar və proqnostik metodlar. Situasiyanın təhlili metodları: müşahidə, sənədlərin öyrənilməsi və müqayisə. Eksplikativ metodlar: kontent-analiz, ivent-analiz, koqnitiv kartlaşma və eksperiment. Proqnoz metodları: delfi, ssenarilərin qurulması, sistemli yanaşma və modelləşdirmə. BMN fənninin əsas funksiyaları: idrakı proqnozlaşdırığı, idarəedici və ideoloji.

## Mövzu III
## Beynəlxalq münasibətlərin öyrənilməsində nəzəri məktəblər

İdealizmin (liberalizm) əsas müddəaları. Klassik idealizmin (liberalizm) görkəmli nümayəndələri (Con Lokk, Jan Antuan Kondorse, Jan-Jak Russo, İmmanuel Kant, Jeremi Bentam).

Dünya Kommunist sisteminin dağılması və liberalizmin dirçəlişi. Frensis Fukuyama liberal demokratiya haqqında («Tarixin sonu və sonuncu insan» («The End of History and the Last Man»).

İdealizmin "daxili-xarici" ("inside-aut") yanaşmasının mahiyyəti və əhəmiyyəti. Neorealistlərin (Kennet Valts) "daxili-xarici" ("inside-aut")

yanaşmaya münasibəti. İdealizmdə müharibə konsepsiyası (Cozef Şumpeter, Con Müller). Liberalizm gizli diplomatiya, qüvvələrin balansı və kollektiv təhlükəsizlik haqqında.

**Liberalizmin iqtisadi nəzəriyyəsi.** İqtisadi liberalizmin əsasları. İqtisadi millətçilik. Avtarkiyyə. Liberallar sərbəst ticarət haqqında. Nisbi üstünlük nəzəriyyəsi sərbəst ticarət ideyasının əsası kimi. Qarşılıqlı asılılıq nəzəriyyəsi. Neorealistlər liberalların qarşılıqlı asılılıq nəzəriyyəsi haqqında. Liberalizmin "laissez-faire" doktrinası. Karl Polanye XIX əsr liberalizminin iqtisadi nəzəriyyəsi haqqında. Fridrix List sərbəst ticarət haqqında. Qloballaşma erasında sərbəst ticarət. Dünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi beynəlxalq təşkilatların fəaliyyəti və liberal beynəlmiləlçilik.

**Realizm**. Realizmin ümumi xarakteristikası. Realizmin idealizmdən fяrqli cəhətləri. Klassik realizm və onun nümayəndələri. Qüvvə və milli maraq realizmin əsas kateqoriyaları kimi. Edvard Karrın konsepsiyasının əsas müddəaları. Hans Morqentaunun siyasi realizminin altı prinsipi. Morgentaunun milli maraq konsepsiyası. Morqentau müharibənin səbəbləri və sülhü qorumaq haqqında. Morqentau diplomatiyanın doqquz qaydası haqqında. Morqentaunun siyasi realizm nəzəriyyəsinin dəyərləndirilməsi. Ənənəvi realizmin tənqidi.

**Neorealizm.** Neorealizmin əsas müddəaları. Kennet Uolts neorealizmin banisi kimi. Uoltsın realizmə, liberalizmə və marksizmə münasibəti. Beynəlxalq sistemin əsas qüvvələri və prinsipləri. Beynəlxalq sistemin dövlətin xarici siyasətinə həlledici təsiri. Uoltsın neorealizm nəzəriyyəsinin dəyərləndirilməsi.

**Rasionalizm.** Rasionalizmin ümumi xarakteristikası. Huqo Qrosiy – rasionalist yanaşmanın banisi kimi. Martin Vayt, Xedli Bull. Rasionalizm, realizm və idealizm arasında olan bir yanaşma kimi. Rasionalizmdə "beynəlxalq sistem" və "beynəlxalq cəmiyyət" anlayışları. Rasionalizmdə nizam və ədalət arasında münasibət. Qeyri-Qərb xalqlarına münasibət. Beynəlxalq cəmiyyətin genişləndirilməsi. Qərbə qarşı üsyan. Rasionalizm nəzəriyyəsinin dəyərləndirilməsi.

**Marksizm.** Marksizmin beynəlxalq münasibətlər nəzəriyyəsinin əsas müddəaları. Marksizm BMN-nin klassik paradiqması kimi. Marksizmin liberalizm və realizmdən fяrqli cəhətləri. Marksın tarixi materializm nəzəriyyəsinin əsasları. Marksizm, imperializm və millətçilik. harгında. Neomarksizm və onun əsas müddəaları. Marksizmin beynəlxalq münasibətlər nəzəriyyəsinin əhəmiyyəti.

## Mövzu IV
## BMN-də böyük debatlar

BMN-də böyük debatların ümumi xarakteristikası. Birinci debat. İkinci debat. Beynəlxalq münasibətlərə biheviorist yanaşma. Üçüncü debat. BMN-də bıoyük debatların əhəmiyyəti.

## Mövzu V
## Dövlətin davranış nəzəriyyələri (üsтün tutulan davranış nəzəriyyələri)

Dövlətin davranış nəzəriyyələrinin (üsтün tutulan davranış nəzəriyyələri) ümumi xarakteristikası. Qərarın qəbul edilməsi nəzəriyyəsi. Oyunlar nəzəriyyəsi. Cəmi sıfıra bərabər olan (zero sum zames) və cəmi sıfıra bərabər olmayan (non-zero sum zames) oyunlar. Əməkdaşlıq oyunları. Aksiomalı sövdələşmə. Tam məlumatın olması oyunları. "Cücələrin oyunu". Məhbus dilemması. Sövdələşmə nəzəriyyəsi.

## Mövzu VI
## Qüc. Milli maraq. İdeologiya

Qüc BMN-nin kateqoriyası kimi. Qücün elementləri: təbii (coğrafiya, təbii sərvətlər, əhali), sosial (iqtisadi inkişaf səviyyəsi, siyasi struktur və milli mənəviyyət) və ideoloji (ideallar, elmin inkişaf səviyyəsi və dövlət başcılarının müdrikliyi). Qücdən istifadə edilməsi metodları: inandırma, cəzalandırma və məcburetmə.

Qüvvələrin balansı nəzəriyyəsi. Kuinsi Rayt qüvvələrin balansı haqqında. Qüvvələrin balansı nəzəriyyəsinin tədqiqatçıları və tərəfdarları. Qüvvələrin balansının üstünlükləri.

Kollektiv tяhlükəsizlik prinsipi (nəzəriyyəsi). Milli maraq BMN-nin kateqoriyası kimi. Təhlükəsizlik dilemması.

İdeologiyanın növləri: status-kvo, sülh və beynəlxalq hüquq, imperializm ideologiyası. İmperializmə qarşı olan ideologiyaların növləri. Milli maraq və ideologiya.

## Mövzu VII
## Xarici siyasət və diplomatiya

Xarici siyasətin ümumi xarakteristikası. Corc Modelski xarici siyasət haqqında. Xarici və daxili siyasət arasında münasibət. Diplomatiya xarici siyasətin həyata keçirilməsinin bir vasitəsi kimi. Kuinsi Rayt diplomatiya haqqında. Diplomatiyanın məqsədi. Diplomatiya və beynəlxalq hüquq. Müasir dövrdə beynəlxalq hüququn diplomatiyanın məqsədinə cevrilməsinin səbəbləri. Köhnə diplomatiyanın beş əlaməti. Qizli diplomatiya. Yeni diplomatiya köhnə diplomatiyanın genişləndirilmiş forması kimi.

## Mövzu VIII
## Münaqişə və müharibə

Münaqişə bir sosial hadisə kimi. Gizli və açıq münaqişə. Destruktiv və konstruktiv münaqişə. Beynəlxalq münaqişələrin ümumi xarakteristikası. "Soyuq müharibə" dövründə ölkələrarası münaqişələr. Globallaşma dövründə ölkələrarası münaqişələrin xüsusiyyətləri. Beynəlxalq münaqişələrin öyrənilməsinə dair əsas yanaşmalar (strateji tədqiqatlar; münaqişənin təhlili; sülhün tədqiq olunması). Beynəlxalq münaqişələrin tənzimlənməsinin siyasi metodları (ənənəvi və institusional metodlar). Beynəlxalq münaqişələrin tənzimlənmə mexanizmləri (iqtisadi, humanitar, informasiya, hüquqi, hərbi). Müharibənin ümumi xarakteristikası. Müharibənin növləri. Müasir dövrdə ölkələrarası müharibələrin baş verməк ehtimalı.

## Mövzu IX
## Beynəlxalq əməkdaşlıq və inteqrasiya

Beynəlxalq əməkdaşlığın ümumi xarakteristikası. Dövlətlərarası əməkdaşlığının şərtləri və növləri. İdealizm və realizm beynəlxalq əməkdaşlıq haqqında. Arnold Volfers daxili və xarici əməkdaşlıq haqqında.

Beynəlxalq rejimlər nəzəriyyəsi. Beynəlxalq rejimlərin yaradılmasının əhəmiyyəti. Dövlətlərarası əməkdaşlığının təhlilinə dair sosioloji yanaşma. Beynəlxalq əməkdaşlığının təhlili ilə bağlı olan müasir sosioloji yanaşmaların əsas qrupları ("Britaniya məktəbi", konstruktivizm, tarixi institusionalizm, "Fransız məktəbi"). Sosioloji yanaşmanın çatışmazlığı. Beynəlxalq əməkdaşlıq və inteqrasiya prosesləri.

# KONFLİKTOLOGİYA

## Mövzu I
## Konfliktologiyanın predmeti və mahiyyəti

"Konfliktologiya" anlayışı. Konfliktologiyanın siyasi elmlərdə yeri. Konfliktologiyanın metodologiyası və mahiyyəti. Konfliktologiya müasir beynəlxalq münasibətlərin tərkib hissəsi kimi. Konfliktologiyanın predmeti və mahiyyəti.

Münaqişəyə dair baxışların təkamülü. Konfliktoiogiya nəzərəsində əsas istiqamətlər, Psixologiyada münaqişə problemi. Münaqişənin sosioloji nəzəriyyələri. Münaqişələrin politoloji nəzəriyyələri. Konfliktologiyanın nəzəri əsasları. Münaqişələrin öyrənilməsində sistemli yanaşma. Münaqişələrin təsnifatının əsas növləri. Münaqişədə davranış strategiyası. Münaqişənin dinamikası. Münaqişənin inkişaf mərhələləri.

## Mövzu II
